

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 sentyabr 2026-cı il №65 (3067) https://mod.gov.az Qiymәti 30 qәpik

*Tarix elə anlar yaşadır ki, həmin günlər və hadisələr illər, onilliklər keçsə belə xalqın yaddaşından silinmir. Azərbaycan xalqı üçün belə tarixi günlər çoxdur, 1993-cü ilin 15 iyunu kimi, 2016-cı ilin apreli, 2020-ci ilin payızı kimi… 2023-cü ilin 19-20 sentyabr tarixləri də məhz belə yaddaşdan silinməyən günlərdəndir. Həmin gün Azərbaycan Respublikasının dövlət suverenliyi bütün ölkə ərazisində tam bərpa edildi. Doğma yurdumuz olan Qarabağımızda 30 ilə yaxın davam edən işğala və separatizmə son qoyuldu, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi bütün ərazilərimizdə təmin edildi və üçrəngli, şanlı Dövlət Bayrağımız ölkəmizin bütün şəhər və rayonlarında olduğu kimi, Qarabağımızın hər guşəsində fəxarətlə dalğalanmağa başladı.*

## “Azərbaycan xalqı bir yumruq kimi birləşərək öz ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq hüququ və ədaləti bərpa etmişdir”

Biz bu Zəfəri birdən-birə qazanmadıq. Onun arxasında illərlə davam edən dövlət və ordu quruculuğu prosesi, güclü iqtisadiyyat, düşünülmüş xarici siyasət və ən başlıcası xalqımızın iradəsi dayanırdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilməsi də məhz bu tarixi yolun mahiyyətini özündə əks etdirirdi. Sərəncamda Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30-cu, Vətən müharibəsində qazanılmış şanlı Qələbənin isə 5-ci ildönümünün qeyd olunması ilə yanaşı, ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin tam bərpa olunması kimi tarixi reallıq nəzərə alındı.



Müasir dövlətçilik tariximizdə Konstitusiyanın özünəməxsus yeri vardır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də hazırlanaraq ümumxalq referendumu ilə qəbul edilən əsas qanun müstəqil Azərbaycanın hüquqi dövlət quruculuğunun fundamental əsaslarını müəyyənləşdirdi.

1995-ci il iyunun 5-də Ulu Öndərin sədrliyi ilə Konstitusiya komissiyasının ilk iclasından həmin ilin noyabrında keçirilən referendumadək Dahi Lider Heydər Əliyev bu mühüm sənədin hazırlanmasına şəxsən rəhbərlik etdi. Konstitusiyanın müddəalarının geniş ictimai müzakirəyə çıxarılması, xalqın milli-mənəvi dəyərlərinin və dövlətçilik ənənələrinin nəzərə alınması onun əsas prinsiplərindən idi.

Əsas qanunun qəbulundan sonra Azərbaycanda qanunvericilik, məhkəmə-hüquq sistemi və dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində mühüm islahatlar həyata keçirildi. Sonrakı illərdə Konstitusiyaya referendum yolu ilə edilmiş əlavə və dəyişikliklər isə yeni dövrün tələblərinə uyğun olaraq insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsinə, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinə və hüquqi dövlət prinsiplərinin möhkəmləndirilməsinə xidmət etdi.

Lakin müstəqilliyin ilk illərində Azərbaycan dövlətinin qarşısında daha ağır və həyati təhlükə dayanırdı. Ölkəmiz Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ərazilərimizin bir hissəsi işğal edilmiş, yüz minlərlə soydaşımız doğma yurdlarından didərgin düşmüşdü. Şəhər və kəndlərimiz dağıdılaraq viran edilmiş, tarixi və mədəni irsimizə qarşı məqsədyönlü vandalizm siyasəti həyata keçirilmişdi.

Bu ağrılı illərdə Azərbaycan xalqının qarşısında bir məqsəd dayanırdı: nəyin bahasına olursa-olsun, torpaqlarımızı işğaldan azad etmək və ərazi bütövlüyümüzü bərpa etmək. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu da prioritet istiqamətə çevrildi.

(Ardı 2-ci səhifədə)

## Müdafiə Nazirliyinin məlumatı




Azərbaycan Respublikası Müdafiə Nazirliyində hərbi xidmətkeçmə ilə bağlı müvafiq konsepsiyaya əsasən, hərbi xidmətdə olan yüksək intellektə malik istedadlı hərbi qulluqçular hərbi xidmətlərini Milli Müdafiə Universitetinin tərkibində yaradılmış bölmələrdə xüsusi şəraitdə davam etdirirlər.

Həmin hərbi qulluqçular qeyd edilən bölmələrdə öz ixtisaslarına uyğun müxtəlif layihələrə və fəaliyyətlərə cəlb olunurlar.

Cari təqvim ilindən əvvəlki təqvim ilinin nəticələrinə görə beynəlxalq reytinqi (“Times Higher Education (THE) World University Rankings” və ya “Academic Ranking of World Universities” (Shanghai)) ilk 500-cü sırada yer alan xarici ali təhsil müəssisəsinin bakalavriat və ya magistratura proqramlarının məzunları olan çağırışçıların həmin intellektual qabiliyyətli bölmələrdə xidmət etmələri nəzərdə tutulmuşdur.

Növbəti çağırış ayı ərzində müddətli həqiqi hərbi xidmətə çağırılan, yuxarıda qeyd olunmuş siyahılarda yer alan xarici ali təhsil müəssisələrində təhsil almış çağırışçıların adıçəkilən bölmələrdə xidmət etmələrini təmin etmək məqsədilə onların özləri və ya ailə üzvləri tərəfindən 21.09.2026-cı il tarixədək aşağıda qeyd olunan məlumatları intel_unit@mmu.edu.az elektron ünvanına göndərmələri xahiş olunur:

- çağırışçının adı, soyadı və ata adı;
- çağırış rübü və ili (çağırıldığı tarix);
- xarici dövlətlərin təhsil müəssisələrində ali təhsil almış şəxslərin ixtisaslarının Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən tam tanınmasına (akademik və peşə) dair sənəd (PDF formatında) və ya tanınma prosesinin başlamasına dair sistemdən çıxarış.

Qeyd olunan kateqoriyaya aid çağırışçıların intellektual qabiliyyətli bölmələrdə xidmətə cəlb edilməsi Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında 600 və daha yüksək bal toplamış çağırışçılarla eyni layihə çərçivəsində həyata keçirilir. Bu səbəbdən, qəbul imtahanlarında 600 və daha yüksək bal toplamış şəxslər aidiyyəti dövlət qurumları ilə qarşılıqlı məlumat mübadiləsi əsasında müəyyən edildiyindən, onların ailə üzvləri tərəfindən əlavə müraciət edilməsinə ehtiyac yoxdur.

## Musiqimiz xalqımızın milli-mənəvi dəyərlərini özündə ehtiva edir

Hər il ölkəmizdə 18 Sentyabr - Milli Musiqi Günü kimi qeyd olunur. Milli Musiqi Günü Azərbaycanın musiqi mədəniyyətini və bu sahədəki tarixi irsini qeyd etmək məqsədilə keçirilən bir bayramdır. 18 sentyabr tarixinin respublikamızda Milli Musiqi Günü kimi keçirilməsi dahi bəstəkarımız Üzeyir Hacıbəyovun doğum günü ilə əlaqədardır. Xüsusi olaraq qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikasının Dövlət Himninin musiqisi dünya şöhrətli bəstəkarımız Üzeyir Hacıbəyova məxsusdur. Onun əsərləri milli musiqimizin inkişafında mühüm rola malikdir. Üzeyir Hacıbəyov Azərbaycan klassik musiqisinin inkişafında müstəsna xidmətləri olmuş bir bəstəkar, dirijor və musiqi pedaqoqudur. O, Azərbaycanın ilk opera əsəri olan “Leyli və Məcnun”u bəstələmiş, həmçinin Azərbaycan muğamlarını orkestrləşdirmiş və milli musiqinin inkişafına yönəlmiş bir çox əsərlər yaradıb. Məhz buna görədir ki, milli musiqimiz, mədəniyyətimiz öz inkişaf zirvəsinə görə Üzeyir Hacıbəyova borcludur. O, Azərbaycan musiqisi və onun inkişaf yolları barədə zərərli meyillərə, yanlış fikirlərə qarşı mübarizə aparırdı.

(Ardı 5-ci səhifədə)

## Türkiyənin “ROKETSAN” şirkəti ballistik raketlərin siyahısını genişləndirməyi planlaşdırır

Türkiyənin yeni “İHA-300” hipersəs raketi 250 kilometrdən çox məsafədə yerləşən hədəfi dəqiq vurub.

AZƏRTAC xəbər verir ki, bu barədə “ROKETSAN” müdafiə şirkətinin baş direktoru Murat İkinci jurnalistlərə məlumat verib.

Onun sözlərinə görə, qısamənzilli ballistik raketin sınaq buraxılışı “AKINCI” zərbə PUA-sından həyata keçirilib. Hədəf Qara dənizin akvatoriyasında vurulub.

“Uçuş məsafəsi 300 kilometrədək olan bu “hava-yer” tipli hipersəs raketləri sayəsində Türkiyə Hərbi Hava Qüvvələrinin imkanları əhəmiyyətli dərəcədə genişlənəcək. Biz bu istiqamətdə işlənib hazırlanan məhsulların siyahısını genişləndirməyi hədəfləyirik”, - deyə “ROKETSAN”ın rəhbəri bildirib.

O qeyd edib ki, yeni raketlərin həm hərbi təyyarələrin, həm də zərbə tipli pilotsuz uçuş aparatlarının silahlanmasına daxil edilməsi planlaşdırılır.

“ROKETSAN”ın baş direktoru, həmçinin 1000 kilometrdən çox məsafədəki hədəfləri vurmaq imkanına malik digər Türkiyə ballistik raketi olan “TAYFUN Blok-4”ün yaxın zamanda seriyalı istehsalına başlanacağını açıqlayıb.



*20 Sentyabr - Dövlət Suverenliyi Günüdür*

# “Azərbaycan xalqı bir yumruq kimi birləşərək öz ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq hüququ və ədaləti bərpa etmişdir”

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

***“Azərbaycan xalqı qan tökərək, döyüşərək bu torpaqları azad etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların canı-qanı bahasına, qəhrəman övladlarımızın fədakarlığı hesabına biz öz ədalətimizi, hüququmuzu və milli ləyaqətimizi bərpa etdik. İşğalçıları torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsində qaldırdıq, separatçılığa son qoyduq. Separatçı liderlər, hərbi cinayətkarlar, uşaq qatilləri bu gün Azərbaycan həbsxanalarında öz cəzalarını çəkirlər. Bu da ədalətin təntənəsidir. Yəni ədalət tam zəfər çalmışdır və Azərbaycan xalqı bir yumruq kimi birləşərək öz ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq hüququ və ədaləti bərpa etmişdir”.***

(Əvvəli 1-ci səhifədə)

Məhz həmin dövrdə vahid komandanlıq altında nizami, intizamlı və peşəkar Silahlı Qüvvələrin formalaşdırılması üçün mühüm addımlar atıldı.

Əbədiyaşar Ali Baş Komandanın illər əvvəl söylədiyi “əgər bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa-olsun, işğal olunmuş torpaqlarımızı azad etməliyik” fikri Azərbaycan xalqının və ordusunun gələcək mübarizə yolunun əsas istiqamətlərindən birinə çevrildi. Bu siyasi kurs sonrakı mərhələdə Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, dövlətimizin başçısı İlham Əliyev tərəfindən ardıcıl şəkildə uğurla davam etdirildi.

Ölkəmizin iqtisadi qüdrətinin artması, müdafiə sənayesinin inkişafı, ordumuzun ən müasir silah və hərbi texnika ilə təchiz olunması, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi qulluqçuların peşəkarlığının artırılması Azərbaycan Ordusunu regionun ən güclü ordularından birinə çevirdi. Vətən müharibəsi isə bütün bu hazırlığın, dövlət-xalq-ordu birliyinin sınağı oldu.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhə boyu genişmiqyaslı təxribatına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi Azərbaycan xalqının çoxəsrlik tarixinin ən parlaq səhifələrindən birini yazdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbçilərimiz misilsiz qəhrəmanlıq və fədakarlıq göstərərək Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarını, Hadrut qəsəbəsini, Şuşa şəhərini və bir çox yaşayış məntəqələrini işğaldan azad etdilər.

Noyabrın 8-də Şuşanın azad edilməsi müharibənin taleyini həll edən tarixi hadisəyə çevrildi. Üç gün sonra Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu.

Lakin Vətən müharibəsində əldə olunan Zəfərə baxmayaraq, Azərbaycanın qarşısında daha bir mühüm tarixi vəzifə qalırdı - dövlət suverenliyinin bütün ölkə ərazisində tam bərpası.

2020-ci il 10 noyabr tarixli bəyanatdan sonra Azərbaycan Qarabağda Ermənistan silahlı qüvvələrinin qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin mövcudluğunun aradan qaldırılması, bölgədə sabitliyin təmin olunması və dövlət suverenliyinin tam bərqərar edilməsi istiqamətində ardıcıl addımlar atdı.

Lakin üçtərəfli bəyanatın müddəalarına zidd olaraq Qarabağımızda mövcudluğunu davam etdirən Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun mövqelərini atəşə tutur, ərazilərimizdə mina terroru törədilir və separatçı rejim fəaliyyətini davam etdirməyə çalışırdı.



Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq qarşı tərəf beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizlik nümayiş etdirərək öz çirkin əməllərindən əl çəkmədiyindən heç bir müsbət nəticə əldə olunmadı. Əksinə, yeni silah-sursatlar, hərbi texnika, minalar Qarabağa gətirildi və ölkəmizə qarşı mina terroru davam etdirildi.

Nəhayət, 2023-cü il sentyabrın 19-da Azərbaycan Ordusunun mövqelərinə qarşı növbəti genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin qalıqlarının və qeyri-qanuni erməni silahlı dəstələrinin tərk-silah edilməsi, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bütün ərazilərimizdə bərpa olunması məqsədilə antiterror əməliyyatına başlanıldı.

Azərbaycan Ordusu qarşıya qoyulan vəzifələri yüksək peşəkarlıqla və çox qısa müddətdə yerinə yetirdi. 24 saatdan az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam qələbəsi ilə başa çatdı. Ermənistan silahlı qüvvələrinin qalıqları, qeyri-qanuni erməni silahlı dəstələri, həmçinin separatçı rejim ordumuzun gücü qarşısında tab gətirməyərək diz çökdü, ağ bayraq qaldıraraq təslim oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev çıxışlarından birində bu tarixi hadisəni qiymətləndirərək qeyd etdi ki, antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələndi, separatçı rejim süqut etdi və Azərbaycanda erməni separatizminin kökü kəsildi.

Bu, adi hərbi əməliyyat deyildi. Bu, 30 ilə yaxın davam edən işğal və separatizm səhifəsinin bağlanması idi. Bu, doğma yurdlarından didərgin salınmış insanların öz el-obasına qayıdış yolunun açılması idi. Bu, üçrəngli bayrağımızın Qarabağın bütün yaşayış məntəqələrində ucaldılması idi. Bu, təki Vətən yaşasın deyib, düşmənin üzərinə şığıyan, müqəddəs amallar naminə şəhid olan silahdaşlarımızın, soydaşlarımızın qanının yerdə qalmadığının tarixi təsdiqi idi. Bu illər boyu erməni zülmündən əziyyət çəkmiş həmvətənlərimizin, o cümlədən Xocalı soyqırımı qurbanlarının qisasının döyüş meydanında düşməndən alınmasının təsdiqi idi. Bu, dövlətimizin başçısının qətiyyətinin, siyasi iradəsinin, sərkərdəlik məharətinin növbəti dəfə təsdiqi idi. Bu xalq-dövlət-ordu birliyinin, eyni zamanda, ölkəmizin hərbi-iqtisadi qüdrətinin təntənəsi idi. Bu, Azərbaycan dövlətinin, Azərbaycan xalqının, qarşısına qoyulan bütün tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirən Azərbaycan Ordusunun qüdrətinin təsdiqi idi. Azərbaycan dövləti, Azərbaycan xalqı və qalib ordumuz düşmənə və onun havadarlarına, sözün əsl mənasında, elə bir dərs verdi ki, bu dərs və dərsin tarixi nəticələri heç vaxt unudulmayacaq, yaddaşlardan silinməyəcək, dərsliklərə salınacaq, əfsanəyə çevriləcək.

Prezident İlham Əliyevin də vurğuladığı kimi, 20 sentyabr 2023-cü il Azərbaycan tarixində 8 Noyabr - Zəfər Günü kimi əbədi yaşayacaq tarixi günlərdəndir. Dövlətimizin başçısı qeyd edib ki, 2023-cü ilin aprelində ərazi bütövlüyümüz tam bərpa edildiyi halda, sentyabrın 20-də dövlət suverenliyimiz tam bərpa edildi. Bu iki tarixi hadisə bir-birini tamamlayırdı. 8 noyabr tarixi işğalın hərbi yolla məğlub edildiyi gün idisə, 20 sentyabr tarixi Azərbaycanın öz ərazisində dövlət suverenliyini tam təmin etdiyi gün oldu.

Antiterror əməliyyatının sürəti və nəticəsi Azərbaycan Ordusunun hazırlıq səviyyəsinin mühüm göstəricilərindən biri oldu. Prezident İlham Əliyevin çıxışlarından birində qeyd etdiyi kimi, sentyabr hadisələrinə hazırlıq əvvəlcədən aparılmışdı və strateji yüksəkliklərin nəzarətə götürülməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində sentyabrın 19-20-də qarşıya qoyulan məqsədlərə çatmaq üçün cəmi bir neçə saat kifayət etdi. Bu uğurun arxasında illərlə davam edən ordu quruculuğu prosesi, hərbi təlimlər və dövlət siyasəti dayanırdı. Azərbaycan əsgəri döyüş meydanında yalnız silahın gücünü deyil, Vətən sevgisinin, peşəkarlığın və yüksək mənəvi-psixoloji hazırlığın gücünü də nümayiş etdirdi.

Əməliyyatın nəticəsi isə bütün dünyaya bir daha göstərdi ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmək, eyni zamanda, qorumaq əzmindədir və bu iradənin arxasında güclü dövlət, iradəli xalq və qüdrətli ordu dayanır.

Qazandığımız Zəfərin ən böyük mənası isə bu gün daha aydın görünür. Bir vaxtlar işğal altında olan torpaqlarımızda bu gün Azərbaycan bayrağı dalğalanır. Dağıdılmış şəhərlər yenidən qurulur, kəndlər bərpa edilir, keçmiş məcburi köçkünlər öz doğma yurdlarına qayıdırlar. Qarabağın hər qarışında həyat yenidən canlanır. El-obalarımızdan toy-bayram səsləri eşidilir. Qarabağ İqtisadi Zonası artıq mühüm rəsmi mərasimlərin, dövlət və beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrilib.

Dövlət suverenliyinin bərpası ilə Azərbaycan tarixində yeni mərhələnin əsası qoyuldu. Bu gün dövlətimizin və Azərbaycan Ordusunun qarşısında dayanan vəzifə isə yalnız 2020-2023-cü illərdə torpaqlarımızın işğaldan azad edilməsi naminə keçirilən hərbi əməliyyatlarda əldə edilmiş Zəfərin nəticələrinin qorunmasından ibarət deyil. Müasir çağırışlara cavab verən, yüksək döyüş hazırlığına malik, ən müasir silah sistemləri ilə təchiz olunmuş, peşəkar ordunun inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən və ordumuzun vəzifələrindən biri olaraq qalır. Çünki sülhün və sabitliyin etibarlı təminatı dövlətin iqtisadi və müdafiə qüdrətinin yüksək olmasından keçir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan xalqının öz gücü, iradəsi, Vətən torpağına bağlılığı, Azərbaycan əsgərinin şücaəti və xalqımızın birliyi Zəfərin əsas mənbələrindən oldu.

Bu gün Zəfər tariximizdə əməyi olan insanları xatırlayarkən qəlbimizdə həm qürur, həm də dərin ehtiram hissi var. Vətən uğrunda canından keçən şəhidlərimizin hər biri torpaqlarımızın azad olunması prosesinin canlı və əbədi salnaməsidir. Onların adı Azərbaycan xalqının yaddaşında daim yaşayacaq, göstərdikləri şücaət isə gələcək nəsillər üçün əsl vətənpərvərlik nümunəsi olacaqdır. Bu gün azad Qarabağımızın səmasında dalğalanan üçrəngli bayrağımız qəhrəmanlığın ən böyük rəmzidir. Azərbaycan Ordusu bu bayrağın ucalığını, daim qürurla dalğalanmasını qoruyan qüvvə, dövlətimizin təhlükəsizliyinin, silahlı müdafiəsinin və suverenliyinin qarantıdır.

Dövlət Suverenliyi Günün mübarək olsun, əziz xalqım! Şəhidlərimizi və döyüşlərdə yaralanaraq sağlamlığını itirmiş silahdaşlarımızı hörmətlə anır, xatirələrini əziz tutur və onları unutmadığımızı dilə gətirərək deyirik ki, bizə qələbə sevincini bəxş edən qalib ordum, zəfərlərin daim olsun! Əminik ki, bu tarixi Zəfərlərin memarı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə bundan sonra da daha böyük nailiyyətlərə imza atacağıq.

**Baş leytenant**
**Elçin İMANOV**
**“Azərbaycan Ordusu”**

* * *

Təqvimin elə mötəbər günləri olur ki, onun mahiyyəti yalnız bir tarixlə məhdudlaşmır. Belə günlər bir xalqın və dövlətin müqəddəratında dönüş nöqtəsinə çevrilir, illər boyu davam edən haqq mübarizəsinin məntiqi nəticəsini özündə əks etdirir, xalqın yaddaşında isə milli qürurun rəmzi, ləyaqətin simvolu kimi yaşayır. Azərbaycan üçün 20 sentyabr da məhz belə tarixi günlərdəndir.

2020-ci ilin payızında Azərbaycan Ordusunun XXI əsrin haqq savaşı ilə qazandığı Böyük Zəfər əzəli və bundan sonra əbədi torpaqlarımızın böyük hissəsinin işğaldan azad edilməsi ilə tarixi ədaləti bərpa etdi. Bütün dünyada yaşayan soydaşlarımızın nümayiş etdirdiyi milli birlikdən və mənəvi dəstəkdən güc alan Azərbaycan əsgəri döyüş meydanında düşmənə çoxdan layiq olduğu dərsi verdi. Darmadağın olan düşmən üçtərəfli Bəyanatla tarixi ərazilərimizdən qeyd-şərtsiz çıxmağı üzərinə götürdü. Amma gün keçdikcə Ermənistan nəinki üzərinə düşən öhdəlikləri yerinə yetirdi, əksinə təxribatlarına davam etməklə müvəqqəti mövqelərindən qanlı toqquşmalara yol açırdı. Azərbaycan tərəfi dəfələrlə bildirdi ki, bu kimi qanunsuz və təhrikçi fəaliyyətlərin bölgədə gərginliyin artmasına səbəb olduğunu nəzərə alaraq, labüd gedişata görə bütün məsuliyyət məhz Ermənistan tərəfinin üzərinə düşəcək.

Belə olan təqdirdə isə ordu qarşısında hələ tamamlanmalı olan növbəti mühüm bir tarixi, müqəddəs missiya vardı: - bütün bu haqsızlığa son qoymaq. Qarabağ iqtisadi rayonunun bir hissəsində Ermənistan silahlı qüvvələrinin qalıqları, qeyri-qanuni erməni silahlı dəstələri və separatçı rejim öz məkrli fəaliyyətini davam etdirir, Azərbaycanın konstitusiya quruluşuna və ərazi bütövlüyünə qarşı təhdidini davam etdirməklə təhlükə yaradırdı. Ermənistanın öz imzaladığı bəyanata dırnaqarası yanaşması və qeyri-adekvat əməllərini davam etdirməsi qeyri-qanuni erməni silahlı birləşmələrinin və separatçı qüvvələrin sonunu yaxınlaşdıran son savaşı getdikcə labüdləşdirdi.

(Ardı 3-cü səhifədə)

# "Azərbaycan xalqı bir yumruq kimi birləşərək öz ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq hüququ və ədaləti bərpa etmişdir"

**(Əvvəli 2-ci səhifədə)**

19 sentyabr 2023-cü il...

Həmin gün Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən təxribatların qarşısının alınması, onların tərk-silah edilərək ərazilərimizdən çıxarılması və təhlükəsizliyin təmin olunması məqsədilə Azərbaycan Ordusu tərəfindən antiterror əməliyyatına başlanıldı. Bu, təsadüfi və qəfil qərar deyildi. Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunması istiqamətində illərlə aparılan mübarizənin məntiqi və həlledici mərhələsi idi. 44 günlük Vətən müharibəsi ilə işğal faktına zatən son qoyulmuşdu. 2023-cü ilin sentyabrında baş verən savaş ilə Azərbaycanın dövlət suverenliyinə tam şəkildə nəzarət etməsinə mane olan sonuncu təhlükə aradan qaldırıldı.



Azərbaycan Ordusunun qarşısında duran əsas vəzifə aydın idi: Ermənistan silahlı qüvvələrinin qalıqlarını və qeyri-qanuni silahlı dəstələri zərərsizləşdirmək, ərazilərimizi separatçı qruplardan təmizləmək və Azərbaycanın konstitusiya quruluşunun bərpasını təmin etmək. Əməliyyatın gedişi bir daha Azərbaycan Ordusunun müasir döyüş imkanlarını, yüksək peşəkarlığını, idarəetmə və koordinasiya qabiliyyətini nümayiş etdirdi. Müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyəti, dəqiq zərbələr və əməliyyatın məqsədyönlü şəkildə aparılması qarşıya qoyulan vəzifələrin qısa müddətdə yerinə yetirilməsinə imkan verdi. Burada diqqətçəkən mühüm məqamlardan biri də əməliyyatın aparılması üsulu idi. Azərbaycan Ordusu qarşıya qoyulan hərbi məqsədlərə nail olmaqla yanaşı, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsinə, mülki infrastrukturun qorunmasına da xüsusi diqqət yetirdi. Hərbi əməliyyatların konkret legitim hərbi hədəflərə yönəldilməsi və dəqiq idarə olunması Azərbaycan tərəfinin məsuliyyətli mövqeyinin göstəricisi idi.

Bir gündən də az müddətdə davam edən antiterror əməliyyatı nəticəsində Ermənistan silahlı qüvvələrinin qalıqları, qeyri-qanuni erməni silahlı dəstələri və separatçı qüvvələr bir daha darmadağın edilərək təslim olmağa məcbur edildi. 20 sentyabr 2023-cü ildə əldə edilən razılaşma ilə ölkəmizin ərazisində olan qeyri-qanuni silahlı birləşmələrin silahı yerə qoyması və tərk-silah olunması prosesi başladı. Beləliklə, Azərbaycan Respublikasının bütün ərazisində dövlət suverenliyinin bərpası təmin edildi. Belə ki, 20 sentyabr Azərbaycanın dövlət müstəqilliyi tarixində yeni mərhələnin başlanğıcıdır. Çünki dövlətin suverenliyi onun ərazisində xəritədə mövcudluğu ilə bitmir. Suverenlik dövlət hakimiyyətinin ölkənin bütün ərazisində təmin olunması, Konstitusiyanın quruluşunun və qanunların aliliyinin bütün ölkədə tətbiq edilməsi, dövlət sərhədlərinin və milli təhlükəsizliyin etibarlı şəkildə qorunması deməkdir. 19 sentyabrda başlayan antiterror əməliyyatı 20 sentyabrda Azərbaycan ərazilərində dövlət suverenliyinin tam bərpası ilə nəticələndi.

Azərbaycan xalqı bu həqiqətə gedən yolun əziyyətini uzun illər işğalın ağır nəticələri fonunda yaşadı. Torpaqlarımızın işğal altında olduğu dövrdə yüz minlərlə insan öz doğma yurdlarından didərgin düşdü, şəhər və kəndlərimiz dağıdıldı, tarixi-mədəni irsimizə ciddi ziyan vuruldu. Buna görə də 2020-ci ildən başlayaraq şanlı Azərbaycan Ordusunun qazandığı zəfərlər yalnız hərbi müstəvidə qələbə deyil, həm də tarixi ədalətin bərpası idi. Bu səbəbdən 20 sentyabrın Dövlət Suverenliyi Günü kimi təsis edilməsi xüsusi tarixi məna daşıyır. Bu gün Azərbaycan xalqının dövlətçilik iradəsinin, ərazi bütövlüyünün və suverenliyinin rəmzinə çevrilib.

Suverenliyin bərpası ilə qarşıda yeni vəzifələr yarandı. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, insanların doğma yurdlarına qayıdışı, müasir infrastrukturun yaradılması, şəhər və kəndlərin dirçəldilməsi bu tarixi prosesin növbəti mərhələsinə çevrildi. Bu gün azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işləri bir həqiqəti göstərir: hərbi qələbə yalnız döyüş meydanında əldə olunan nəticə deyil. Əsl Zəfər azad edilmiş torpaqlarda həyatın yenidən canlanması, insanların öz doğma yurdlarına qayıtması və həmin ərazilərin Azərbaycanın iqtisadi, sosial və mədəni həyatına yenidən inteqrasiyası ilə tamamlanır. Bir zamanlar işğal səbəbindən yaşayışın mümkün olmadığı ərazilərdə bu gün yeni yollar, hava limanları, məktəblər, xəstəxanalar, yaşayış kompleksləri inşa edilir. Keçmiş məcburi köçkünlər doğma torpaqlarına qayıdırlar.

20 sentyabr həm də gələcək nəsillər üçün mühüm bir dövlətçilik və vətənpərvərlik dərsidir. Tarixin səhifələri çevrildikcə 20 sentyabrın əhəmiyyətini gələcək nəsillər daha aydın görəcəkdir. Çünki bəzi tarixi günlər yalnız keçmişi xatırlatmır, firavan gələcəyə də təminat verən prosesin dönüş nöqtəsi olur. Bu tarix göstərdi ki, dövlətin ərazi bütövlüyü və suverenliyi yalnız siyasi sənədlərlə deyil, güclü dövlətçilik, inkişafı təmin olunan möhkəm-dayanıqlı iqtisadiyyat, milli birlik və qüdrətli ordu ilə təmin edilir.

Bu gün Azərbaycan əsgəri azad edilmiş torpaqlarımızda dövlət bayrağının və Vətənin keşiyini çəkir. Dünən döyüş meydanında qələbə qazanan əsgər bu gün sülhün, sabitliyin və quruculuğun keşiyində dayanır. 20 Sentyabr Azərbaycan dövlətçiliyinin gücünü, xalqımızın iradəsini və ordumuzun qüdrətini özündə birləşdirən tarixi bir gündür. Bu gün həm keçmişə ehtiram, həm bu günə qürur, həm də gələcəyə əminlik ifadəsidir.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*21 Sentyabr - Beynəlxalq Sülh Günüdür*

# Dünyamıza sülh gərəkdir!

Sülh hər zaman bəşəriyyətə gərəkli olan dəyərdir. Əmin-amanlığa, dinc yanaşı yaşamağa çağırışdır. Sülhün qorunması uşaqlarımızın qorunması və mavi səmamızın daima açıq olması deməkdir. Bir danılmaz faktdır ki, yüzillik müharibələrin sonu sülh yolu ilə sona çatıb. Ona görə də sülh bütün vasitələrdən güclüdür. Dünyada sülh gününün keçirilməsi, bayram edilməsi sülhsevər xalqların bir araya gələrək anamız bəşəriyyətin xilası üçün birlik nümayiş etdirməsi deməkdir.

Beynəlxalq Sülh Günü Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 1981-ci ildə qəbul etdiyi qətnamə ilə təsis edilib və ilk sülh günü 1982-ci ilin sentyabrında qeyd olunub. Elə o vaxtdan etibarən də hər il sentyabrın hər 3-cü çərşənbə axşamı Beynəlxalq Sülh Günü kimi keçirilirdi. Lakin BMT Baş Məclisinin 2001-ci ildə qəbul etdiyi qətnaməsinə əsasən, Beynəlxalq Sülh Günü artıq bütün sülhsevər ölkələrdə 21 sentyabr tarixində qeyd olunur.

BMT tərəfindən belə bir tarixi günün təsis edilməsində əsas məqsəd bütün ölkələri və xalqları həmin gün hərbi əməliyyatları dayandırmağa və ya sülh problemləri ilə bağlı təhsil və ictimai maarifləndirmə kampaniyaları keçirməyə dəvət etmək olub. Təbii ki, sülh bəşəri rəmzə çevrilərək insanların arzu etdiyi və can atdığı bütün müsbət keyfiyyətləri özündə birləşdirən məfhum anlamında başa düşülür. Bu baxımdan, dünya ölkələrinin yekdil qərarı ilə əlamətdar gün kimi qəbul edilmiş Beynəlxalq Sülh Gününün əhəmiyyəti zaman keçdikcə, münaqişə ocaqları alovlandıqca üzə çıxır. Buna görə də cinsindən, yaşından, irqindən, milliyyətindən, dinindən, dilindən asılı olmayaraq, sülh arzulayan hər kəsin yardımına ehtiyac duyulur. BMT-nin Baş katibinin hər il Beynəlxalq Sülh Günü münasibətilə müraciətində deyilir ki, münaqişələrin səngiməsi, atəşkəs rejiminə tərəflərin qarşılıqlı şəkildə əməl etməsi təkcə insanların əmin-amanlıq şəraitində yaşaması deyil, eyni zamanda, inkişaf tərəqqi və bəşəri təhlükəsizliyə təminatdır.




Bu gün təəssüflə qeyd etmək lazımdır ki, sülh naminə beynəlxalq səviyyədə aparılan fəaliyyətlər həyati əhəmiyyətə malik olsa da, heç də hər yerdə qorunmur, müdafiə edilmir, milli münaqişələr daha da qloballaşır, fiziki coğrafiyası genişlənir, onların insan həyatı və bütövlükdə bəşəriyyət üçün təhlükəli olan nəticələrə səbəb olur.

İllərlə müharibə şəraitində yaşamış ölkəmiz üçün sülhün əbədi bərqərar olması daha əhəmiyyətlidir. 30 ilə yaxın müddətdə Ermənistanın torpaqlarımıza təcavüzü nəticəsində müharibənin əziyyətlərini yaşayan, qaçqın, köçkün problemi ilə üzləşən Azərbaycan regionda sülhün, əmin-amanlığın təminatı üçün bütün imkanlardan istifadə etdi, beynəlxalq təşkilatlarda ərazi bütövlüyümüzün bərpası üçün aparılan müzakirələrdə, danışıqlarda sülhsevər siyasətini diqqətə çatdırdı. Ermənistanın dinc əhalimizə qarşı törətdiyi Xocalı soyqırımının tanıdılması barədə müraciətlər dünyanın bütün xalqlarına ünvanlandı. Daima sülh tərəfdarı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müharibə zamanı erməni silahlıları tərəfindən öldürülən, əlil olan soydaşlarımızın hüquqlarının qorunması üçün beynəlxalq ictimaiyyəti ədalətli olmağa çağırdı.

Azərbaycan sülhsevər ölkə kimi bir çox beynəlxalq təşkilatlar tərəfindən qəbul edilib. Və bu səbəbdən ölkəmiz multikulturalizm və tolerantlıq mövzularında beynəlxalq konfranslara ev sahibliyi edib. Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlayan, noyabrın 10-da imzalanan üçtərəfli bəyanatla başa çatan Vətən müharibəsinin nəticələri regionda real sülhün bərqərar olması üçün fundamental əsaslar yaratdı. Bu əsaslar Azərbaycan xalqının və onun ən böyük maddi-mənəvi sərvəti Silahlı Qüvvələrimizin və onun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin regionda yaratdığı yeni status-kvonu şərtləndirən amil oldu. İstər 44 günlük Vətən müharibəsi dövründə, istərsə də müharibədən ötən dövr ərzində ordumuz tərəfindən erməni təxribatlarına cavab verilərkən dinc əhaliyə qarşı humanizm prinsipləri daim qorunmuş, əbədi sülhün yaranması üçün bütün vasitələrdən istifadə olunmuşdur.

Azərbaycan Respublikasının dövlət siyasəti regionda əbədi sülhün bərqərar olmasına yönəlib və bu kurs ardıcıl olaraq aparılır. Dünyada sülhün qorunmasına, həmçinin münaqişə ocaqlarında sülhün bərqərar olunmasında göstərdiyi xidmətlərə görə ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyəti ilə daim fərqlənib. Belə ki, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü", "Gənclər sivilizasiyaların alyansı naminə", habelə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi qlobal tədbirlər Azərbaycanın dünyada sülhün bərqərar olmasına töhfə vermək niyyətini ifadə etməklə yanaşı, sülhün təşviqində böyük rol oynayıb.

Əminliklə deyə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yorulmaz fəaliyyəti, müdrik və uzaqgörən diplomatik bacarığı sayəsində görülən işlər, beynəlxalq səviyyədə aparılan danışıqlar öz bəhrəsini verəcək, tezliklə bölgədə əbədi sülhə nail olunacaqdır.

Hər il Beynəlxalq Sülh Gününü qeyd edən Azərbaycan yaşından, irqindən, milliyyətindən, dinindən və cinsindən asılı olmayaraq hər kəsi sülhə səsləməkdə davam edir. Dünyada analoqu olmayan bir faciənin - Xocalı faciəsini yaşayan bir xalq belə bir soyqırımının təkrarlanmasını istəmir. Münaqişə ocaqlarının alovlanmasının qarşısını almağa səsləyir. Dünyamıza sülh gərəkdir! Nə qədər ki, gec deyil, anamız adlandırdığımız dünyamız tam dağılmayıb, hər kəs, xüsusilə münaqişələrdən hamıdan çox əziyyət çəkib övlad, ata, ana ağrısından sızıldayan analar bir səslə deməlidirlər:

*Silahları yandırın,*
*ərşə qalxsın tüstüsü,*
*Hər obada, hər eldə*
*qanadlansın sülh sözü.*
*Mən anayam, bu səsimdə*
*yerin, göyün dərdi var,*
*Sülhə gəlin, ey insanlar,*
*yoxsa dünya məhv olar.*

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Heç kim unudulmur*

# “Vətən üçün yaşadı, Vətən uğrunda şəhid oldu”



***Qəbələdə şəhid İsmayıl Yaşar oğlu Qurbanovun ailəsi ilə görüşümüz onun qısa, lakin mənalı ömür yoluna nəzər salmaqla başladı. Anası Hüsniyyə xanım, atası Yaşar bəy və qardaşı Röyal İsmayıl haqqında danışdıqca, ailənin yaddaşında yaşayan bir gəncin - zəhmətkeş, istiqanlı, dostcanlı və Vətəninə bağlı İsmayılın obrazı göz önündə canlandı. Hər xatirə onun xarakterinin başqa bir cəhətini üzə çıxarır, ailə üzvlərinin söylədiyi sözlər isə İsmayılın həyat yolunu daha yaxından tanımağa imkan verirdi.***

Qurbanov İsmayıl Yaşar oğlu 2001-ci il martın 6-da Qəbələ rayonunun Böyük Pirəlli kəndində anadan olub. Mülki həyatda turizm ixtisası üzrə peşə fəaliyyətinə yiyələnib. Gənc yaşlarından zəhmətkeşliyi və insanlarla səmimi münasibəti ilə seçilib. Dostları və yaxınları onu istiqanlı, ünsiyyətcil və yardımsevər biri kimi xatırlayırlar. İsmayılın hərb sahəsinə marağı isə təsadüfi deyildi. Ətrafında hərbi qulluqçuların olması, xüsusilə qardaşı Röyalın hərbçi olması bu sahəyə marağını daha da artırmışdı. O, hərbi xidmətə yalnız öz vəzifəsini yerinə yetirmək kimi baxmırdı. Vətən torpaqlarının uzun illər işğal altında qalması İsmayılı düşündürən, narahat edən məsələlərdən biri idi.

İsmayılın xarakterini ailəsinin danışdığı xatirələrdən biri xüsusilə aydın göstərir. Anası Hüsniyyə xanım son zəng günü baş verən hadisəni xatırlayır. İsmayıl dostlarından birinin maddi imkanının zəif olduğunu, atasının olmadığını və son zəng üçün paltar almaqda çətinlik çəkdiyini öyrənir. Dostunun vəziyyəti ona təsir edir. Özü üçün yığdığı məbləği ona verir. Bu, ilk baxışda sadə bir hadisə kimi görünə bilər. Lakin İsmayılı tanıyanlar üçün bu addım onun xarakterinin ifadəsi idi. O, dostunun sevincini sevincindən ayırmayan, ehtiyacı olan insanın yanında olmağı bacaran gənc idi. Hərbi xidmətə başladıqdan sonra İsmayıl Qurbanov özünü seçdiyi sahənin tələblərinə uyğun şəkildə formalaşdırdı. Quru qoşunlarında əsgər kimi hərbi xidmət edən İsmayıl istehkamçı vəzifəsini yerinə yetirirdi. Füzuli istiqamətində, Alxanlı kəndi ətrafında gedən ağır döyüşlərdə iştirak etdi. Onun döyüş yoldaşlarının xatirələrində isə İsmayılın adı mərdlik, igidlik və dostluqla yanaşı çəkilir. Silahdaşlarının söylədiklərinə görə, o, çətin anlarda yoldaşlarını tək qoymayan, onların yanında dayanmağı bacaran əsgər idi. Hətta silahdaşları üçün candan keçəcək qədər fədakar olması onun döyüş yoldaşlarının yaddaşında xüsusi yer tutur.

İsmayılın Vətənə münasibətindən danışarkən anası Hüsniyyə xanım general-mayor Polad Həşimovun şəhid olması xəbərini də xatırlayır. Deyir ki, həmin xəbər İsmayıla çox təsir etmişdi. Generalın şəhid olması onu sarsıtmışdı. İsmayıl torpaqlarımızın işğaldan azad olunacağı günün yaxınlaşmasını böyük həsrətlə gözləyirdi.

Onun sonuncu məzuniyyəti ailənin yaddaşında başqa bir xatirə ilə qalıb. Fevralın 28-də sosial şəbəkə platformalarından birində etdiyi paylaşım sonradan ailəsi üçün xüsusi məna daşıyıb. İsmayıl Qurbanov yazmışdı: “Bir gün məndən xəbər alsanız, alacağınız cavab - başınız uca olsun, olacaq”.

Bu cümlə həmin vaxt adi bir paylaşım kimi görünsə də, sonralar ailəsi üçün İsmayılın xatirəsinə çevrildi.

Hərbi xidmətinin başa çatmasına üç ay qalmışdı. Ailə üzvləri deyirlər ki, İsmayılın şəhidliyindən bir neçə gün əvvəl evdə qəribə bir narahatlıq hiss olunurdu. Hüsniyyə xanım sanki ürəyinə



nəsə damdığını söyləyir. Sentyabrın 27-si isə ailənin həyatında heç vaxt unudulmayacaq günə çevrildi. Gecə saat 03:20-də İsmayılın atası Yaşar Qurbanova zəng gəlir. Ona qapıya çıxmasının lazım olduğu bildirilir. Həyətdə insanlar görünür. Həmin an artıq hər şey məlum olur. Hüsniyyə xanım kövrək səslə: “Mənim hansı balamı gətirmisiniz?” - deyə səslənir. Məlum olur ki, kiçik oğlu İsmayıl Qurbanov şəhid olub...

“İşıqlı dünyam qaraldı...” - Hüsniyyə xanım həmin gecəni belə xatırlayır.

O gecə Qəbələ sakinlərinin şəhid ailəsinin evinə gəlməsi, onların ən ağır anında ailənin yanında olması da Hüsniyyə xanımın yaddaşında qalıb. Xalqın göstərdiyi ehtiram ailəyə təsəlli verən mənəvi dayaq olub.

Şəhid anası üçün “Oğlunuz şəhid olub” sözünü eşitmək nə qədər ağır olsa da, həmin sözün içində Vətən qarşısında qazanılmış ən böyük ucalıq vardı. Hüsniyyə xanım oğlunun şəhidliyi ilə qürur duyduğunu deyir: “Mənim oğlum igiddir. Öz şücaəti ilə bu adı qazanıb. Bütün şəhidlərimiz kimi, oğlum da bu Vətən uğrunda öz canından, qanından keçdi. Təki Vətən yaşasın. Bütün şəhidlərimizin məkanı cənnət olsun. Onların qarşısında baş əyirəm”.



Hüsniyyə xanım İsmayılla bağlı xatirələrindən danışarkən onun özünə bağlılığını da xüsusi vurğulayır. Deyir ki, oğlu bütün sirlərini onunla bölüşərdi: “Oğlum mənə çox bağlı idi. Hər sirrini mənimlə bölüşərdi. Onunla bağlı danışarkən kövrəlsəm də, hər zaman başımı dik saxlayıram. Çünki mən şəhid anasıyam. Mənim oğlum bu xalq üçün, bu millət üçün şəhid olub. Çox qürur duyuram. Oğlumla bağlı xatirələrim bir kitaba sığmaz”.

Bu sözləri eşidərkən mən də bir müxbir kimi həmin anın ağırlığını hiss etdim. Qarşımda oğlunu Vətən uğrunda itirmiş, lakin onun adı çəkiləndə başını dik tutan bir ana oturmuşdu. Hüsniyyə xanımın danışığında kövrəklik vardı, amma bu kövrəkliyin üzərində şəhid anasına xas qürur daha aydın görünürdü. Bir anlıq 44 günlük Vətən müharibəsinin günləri gözlərimin önündə canlandı. O günlərdə xalqımızın yaşadığı birlik, döyüş meydanında Azərbaycan əsgərinin göstərdiyi igidlik və bu Qələbənin arxasında dayanan şəhidlərimizin fədakarlığı bir daha düşüncələrimdən keçdi. Söhbətə oturan ana isə bu böyük tarixdən - öz oğlunun taleyindən danışırdı. Söhbətə şəhidin atası Yaşar Qurbanovla davam edirik. Yaşar bəy oğlunun tərbiyəsindən, xarakterindən və Vətənə münasibətindən danışarkən onun həyatında vətənpərvərliyin xüsusi yer tutduğunu bildirir: “Oğlumu hər zaman vətənpərvər ruhda böyütmüşəm. Mən oğlumun mərdliyini, igidliyini döyüş meydanında gördüm. Bütün şəhidlərimizlə, oğlumla fəxr edirəm”.

Ata oğlunun döyüş meydanında göstərdiyi mərdliyi ən böyük qürur mənbələrindən biri hesab edir.

İsmayılın şəhidliyindən təxminən bir ay sonra ailə daha bir ağır itki ilə üzləşib. Onun babası bu dərdin ağırlığına dözməyərək ürək tutmasından vəfat edib. Hüsniyyə xanım deyir ki, babası İsmayılı çox sevirdi. Nəvəsi haqqında həmişə “İsmayıl çox istiqanlı uşaqdır”, deyərdi. Bu gün həmin söz ailənin yaddaşında İsmayılın uşaqlıq illərindən qalan ən doğma xatirələrdən biridir.

Şəhidin qardaşı hərbi qulluqçu Röyal Qurbanov da İsmayılla bağlı xatirələrini bizimlə bölüşür. Qardaşının sözlərində İsmayılın həm ailə daxilindəki yeri, həm də hərbi sahəyə olan marağı öz əksini tapırdı. Qardaşının və yaxın qohumlarının hərbçi olması İsmayılın bu sahəyə marağını artırmış, onun hərbi xidmətə münasibətinin formalaşmasına təsir etmişdi.

Şəhid İsmayıl Qurbanovun Vətən qarşısında göstərdiyi şücaət və fədakarlıq dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. Qurbanov İsmayıl Yaşar oğlu ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Cəsur döyüşçü” və “Şücaətə görə” medalları ilə təltif olunub. Şəhidin ailəsi dövlətin şəhid ailələrinə göstərdiyi diqqət və qayğını hər zaman hiss etdiklərini bildirirlər. Onların sözlərinə görə, bu münasibət ailələr üçün böyük mənəvi əhəmiyyət daşıyır.

Söhbətimizin sonunda şəhid anası Hüsniyyə Qurbanovanın bir müraciəti oldu. O, şəhidlərin heç vaxt unudulmamasını, onların xatirəsinə daim diqqətlə yanaşılmasını istəyir: “Şəhidlərimiz heç zaman unudulmasın. Onların xatirələri hər zaman anılsın”.

Bu sözlərdən sonra bir daha düşündüm: şəhidlər haqqında yazmaq yalnız onların döyüşdüyü istiqamətləri, keçdiyi hərbi yolu və aldığı medalları sadalamaq deyil. Şəhidin necə insan olduğunu da anlatmaqdır. Çünki gələcək nəsillər İsmayıl kimi oğullarımızı tanımalı, onların Vətənə münasibətini, ailəsinə bağlılığını, dostuna sədaqətini, çətinlik qarşısında göstərdiyi iradəni bilməlidirlər. İsmayılın ailəsinin danışdığı xatirələr onun xarakterini sözlərdən daha yaxşı ifadə edir. Dostunun çətinliyini öz dərdi bilən, ailəsinə bağlı olan, Vətən torpaqlarının işğal altında qalmasını qəbul etməyən, hərbi xidmətini məsuliyyətlə yerinə yetirən, döyüş meydanında silahdaşlarının yanında dayanan bir gənc...

Onun ömrü qısa oldu, amma Vətənə xidmətlə ölçülən bir ömür oldu. Bu gün İsmayıl Qurbanovun adı, ilk növbədə, ailəsinin - anasının danışdığı xatirələrdə, atasının qürurla söylədiyi sözlərdə, qardaşının yaddaşında, döyüş yoldaşlarının xatirələrində yaşayır. Mən Qəbələdən ayrılarkən şəhid anasının bir cümləsini uzun müddət düşündüm: “Oğlumla bağlı xatirələrim bir kitaba sığmaz”.

Doğrudan da, bəzi ömürlər bir yazıya sığmır. Çünki həmin ömürlərin arxasında yalnız bir insanın taleyi dayanmır. Orada bir ailənin sevgisi, bir ananın qüruru, bir atanın fəxarəti, bir qardaşın həsrəti və Vətən qarşısında ödənilmiş müqəddəs borc dayanır.

Şəhid İsmayıl Qurbanovun ömrü də belə ömürlərdəndir.

O, doğulduğu Qəbələ rayonunun Böyük Pirəlli kəndindən Vətən qarşısında borcunu yerinə yetirmək üçün yola çıxdı. Əsgər oldu, Vətənə xidmət etdi, döyüşlərdə iştirak etdi və öz adını şəhidlik zirvəsində əbədiləşdirdi. İndi onun haqqında danışılan hər bir xatirə İsmayılın ömründən bir səhifədir. Bu səhifələri qorumaq, şəhidlərimizin adını və həyat yolunu gələcək nəsillərə çatdırmaq isə bizim mənəvi borcumuzdur.

**Emil MURADLI**
**“Azərbaycan Ordusu”**

# Musiqimiz xalqımızın milli-mənəvi dəyərlərini özündə ehtiva edir

(Əvvəli 1-ci səhifədə)



Dahi bəstəkarımızın fikrincə, simfoniya kimi gəlmə musiqi əsərləri xalqın öz musiqi dilində yazılmalıdır. Eyni zamanda, məsləhət görürdü ki, gənc bəstəkarlar xalq musiqi dilinin bütün qanunlarını düzgün öyrənməli, aydın bir dildə yazmalıdırlar. Bunları əsas tutan bəstəkar yazırdı: “Şəxsən mən öz haqqımda bunu deyə bilərəm ki, mən xalq musiqisini əsaslı surətdə öyrənməyincə böyük əsərlər yazmağa tələsməmişəm”. Xalq musiqisinə böyük dəyər verən ustad sənətkar qeyd edirdi: “Xalq incəsənəti, folklor stili səslər və gözəllik cəhətdən tükənməz zənginliyə malikdir, bunlarda dil çox rəngarəngdir... İlk gözəl nəğmə və rəqs melodiyalarının yaradıcısı da xalq özüdür. Bizə bu gün nümunə olan xalq mahnıları əsrlərdən bəri işlənə-işlənə yaradılmış və yalnız bizim zəmanəmizdə həqiqi bədii formalar almışdır”. Xalqımızın mədəniyyəti, xoşbəxtliyi uğrunda bütün ömrü boyu çalışan Üzeyir bəyin hər bir əsəri onu özündən sonra da əbədi yaşadan abidədir. Dahi bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsası Maestro Niyazi tərəfindən qoyulub. Görkəmli bəstəkar və dirijor Niyazi Üzeyir bəyin vəfatından sonra hər il 18 sentyabr gününü qeyd edib. Ənənəvi olaraq Azərbaycan Dövlət Konservatoriyasının önündə minlərlə insan toplaşırdı. Burada Üzeyir Hacıbəyovun adını daşıyan Azərbaycan Dövlət Simfonik Orkestri Niyazinin rəhbərliyində dahi bəstəkarın əsərlərini ifa edirdi.



1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin Fərmanı ilə dahi bəstəkarımız, korifey sənətkarımız Üzeyir Hacıbəyovun anadan olmasının 110 illiyi ərəfəsində 18 sentyabr tarixi Milli Musiqi Günü olaraq təsis edilib. Həmin gün musiqi festivalları, konsertlər və müxtəlif musiqi tədbirləri ilə qeyd olunur. Milli Musiqi Günü Azərbaycanın musiqi mədəniyyətinin inkişafı, qorunması və təbliğatı baxımından müstəsna əhəmiyyətə malik bir bayramdır. Azərbaycanın musiqi mədəniyyətinin inkişafı, qorunması və təşviqində mühüm əhəmiyyət kəsb edən bu bayram Müdafiə Nazirliyi Əlahiddə Nümunəvi Hərbi Orkestrinin kollektivi tərəfindən də qeyd olunur. Ölkəmizdə 18 Sentyabr - Milli Musiqi Günü münasibətilə keçirilən konsert proqramlarında hərbi musiqimiz, “Qələbə marşı”, Qarabağ şikəstəsi, “Cəngi”, “Koroğlu” uvertürası səslənir.

Əsrlər, qərinələr keçsə də xalqımızın milli musiqi ənənələrində xüsusi yeri olan və ordunu daima döyüşə ruhlandıran mahnılarımız, hərbi marşlarımız, Cəngimiz ruhumuzun qidası kimi qorunub yaddaşlarımızda saxlanılıb. Xalqımızın döyüş ruhunu qidalandıran hərbi musiqimizin ənənələri Müdafiə Nazirliyi Əlahiddə Nümunəvi Hərbi Orkestrin 34 ilə yaxın şanlı və şərəfli fəaliyyətində sədaqətlə qorunur. Məlumat üçün qeyd edim ki, Müdafiə Nazirliyinin Hərbi Orkestri 1992-ci il dekabrın 3-də yaradılıb.

18 Sentyabr - Milli Musiqi Günü ərəfəsində Müdafiə Nazirliyi Əlahiddə Nümunəvi Hərbi Orkestrinin yaradıcı heyəti ilə görüşdük. Orkestr keçiriləcək bayram konsertinin məşqlərini aparırdı. Solist gizir Aynur İsgəndərli musiqisi Elza İbrahimovanın, sözləri Aslan Abdullayevə məxsus “Ey, Vətən”, musiqisi Üzeyir Hacıbəyovun, sözləri Əhməd Cavadın olan “Çırpınırdı Qara dəniz” mahnılarının məşqlərini edirdi...

Öyrənirik ki, gizir Aynur İsgəndərli 10 ildən çoxdur ki, orkestrin solistidir. Hərbi xidmətində şərəfli yaradıcılıq yolu keçib. Eyni zamanda, respublikada beynəlxalq müsabiqələrdə laureat olub. Bir çox xarici ölkələrdə - Riqa şəhərində, Türkiyə Respublikasında və Finlandiyada ölkəmizi uğurla, yüksək nəticələrlə təmsil edərək bayrağımızı ucaldıb. Aynur xanımın ifasında “Çırpınırdı Qara dəniz” mahnısı çox möhtəşəm səslənir və getdiyi bütün ölkələrdə bu mahnı alqışlarla qarşılanır. Repertuarının əsas hissəsini vətənpərvərlik ruhunda yazılan mahnılar təşkil edir. Aynur xanımla söhbətimizin sonunda ona yeni yaradıcılıq uğurları arzuladıq.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Hərbi Orkestr xidmətinin rəisi, Əməkdar İncəsənət xadimi, dosent, polkovnik Rüfət Axundzadə ilə görüşüb rəşadətli Azərbaycan Ordusunun hərbi musiqisinin təbliğində, şəxsi heyətin vətənpərvərlik və döyüş ruhunun yüksəldilməsində qazandıqları nailiyyətlərə görə kollektivi 18 Sentyabr - Milli Musiqi Günü münasibətilə “Azərbaycan Ordusu” qəzetinin oxucuları adından təbrik etdik. Onlara keçdikləri şanlı tarixi yollarında yeni yaradıcılıq uğurları arzuladıq.

Xidmət rəisi polkovnik R.Axundzadə bu bayramın ölkəmizin və o cümlədən ordumuzun mədəni həyatında mühüm yeri olduğunu söyləyərək musiqimizin xalqımızın milli-mənəvi dəyərlərini özündə ehtiva etdiyini bildirdi. Milli hərbi musiqimizin inkişafından, keçdiyi şərəfli yolundan danışdı. “Ordu ənənələrində hərbi musiqi və hərbi marşlar böyük əhəmiyyət kəsb edir. Hərbi musiqi, hərbi marşlar cəmiyyətdə, orduda vətənpərvərlik ruhunun və döyüş əzminin aşılanmasında mühüm rol oynayan amillərdəndir. Orduda aparılan mənəvi-psixoloji təbliğatın həlledici həlqəsi hərbi musiqinin üzərinə düşür. Belə ki, aylarla aparılan ciddi mənəvi-psixoloji hazırlıq əsgərləri, obrazlı desək, atəşə hazır bir silaha çevirirsə, hərbi musiqi əzəmətli səslənişi ilə o silahın tətiyini sıxmış olur. Musiqinin əzəmətindən ruhlanıb cuşa gələn döyüşçü nəhəng bir gücə çevrilir. Məhz bu oxunan hərbi musiqinin, hərbi marşın əsl mahiyyətidir”.

Xidmət rəisi söhbətinə davam edərək onu da bildirdi ki, tarix boyu orduda hərbi musiqini ifa edən kollektivlər olub. “Milli ordu quruculuğu tariximizdə Azərbaycan Xalq Cümhuriyyəti Ordusunda ilk olaraq o dövr üçün müasir və təkmil hərbi orkestr kollektivi yer alıb. 1919-cu ildə Bakıda təşkil olunmuş hərbi paradda Cümhuriyyət Ordusunun qüdrətini onu müşayiət edən hərbi orkestr bütün Şərqə nümayiş etdirmişdi. Bu müsəlman Şərqində ilk müstəqil, demokratik dövlətin - Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun hərbi orkestri idi. Cümhuriyyət Ordusunun əsgər və zabitləri milli ordunun, müstəqil Azərbaycan Ordusunun heyəti olduqlarını dərk edir, bununla fəxr edir və böyük qürur hissi ilə şərqilər, marşlar oxuyurdular. Hərbi marşların, hərbi musiqilərin tarixi ta qədimlərə söykənir. Tarixi araşdırmalardan aydın olur ki, hərb ənənəsində musiqinin rolu nə qədər vacib və əhəmiyyətli olmuşdur. Musiqi döyüşçülərin əhvalına təsir edərək onları şövqləndirməklə yanaşı, praktik əhəmiyyətə malik olub, döyüşün başlanmasını və bitməsini xəbər verib, düşməni ruhdan salmaqla onun sıralarının pozulmasına səbəb olub, hücum və müdafiələri müəyyənləşdirib, müharibə zamanı ordunu istiqamətləndirib. Savaşlarda bayraqlar nə qədər müqəddəs olub qorunubsa, hərbi musiqiçi də dövlət varlığı və müstəqilliyinin təcəssümünə çevrilərək elə müqəddəs olub”.

Polkovnik R.Axundzadə dünya şöhrətli mədəniyyət abidələrindən biri sayılan “Dədə Qorqud” dastanlarında qəhrəman oğuz türklərinin hərb musiqi ənənəsi haqqında geniş məlumatların olduğunu vurğuladı. “Qəhrəman oğuz türkləri ölüm-dirim savaşlarından əvvəl təntənəli, döyüş, qələbə əzmini gücləndirən musiqilər ifa edir, ərləri, ərənləri böyük hücumlara ruhlandırırdılar. Hərbi mahnıların, marşların ifasında boru, nağara, davul və digər musiqi alətləri iştirak edirdi. Bu musiqi alətləri uzun illər boyu döyüş meydanlarında hərbi mahnıların və marşların səslənməsində istifadə olunan əsas, aparıcı alətlər rolunu oynayıb. Orta əsrlərdə də davul və boruların hərbi musiqi alətləri kimi savaş meydanlarında geniş istifadəsi tarixi mənbələrdən bizə məlumdur. Sonradan unudulmuş boru alətinin nadir izləri şifahi xalq ədəbiyyatımızın aşıq yaradıcılığında, məsələn, “Koroğlu borusu” nümunəsində bu günümüzə kimi gəlib çıxmışdır. Çünki kökünü “Dədə Qorqud” dastanlarından götürən ozan-aşıq yaradıcılığı vətənpərvərlik, milli mənlik, mübarizə, igidlik, məğrurluq hissləri ilə



zəngin olub, xalqda mübarizə ruhunun, milli şüurun, qələbə əzminin formalaşmasına xidmət edirdi. Cəngi, Misri qəhrəmanlıq havaları ilə xalqı şövqləndirən aşıq və öz sərt səslənişi ilə döyüş musiqisinin əhval-ruhiyyəsini yaradan zurnaçı dinc, sülh zamanında da bu mübariz ruhu, Vətən sevgisini sönməyə qoymur, onu daima bəsləyib qoruyur”.

Qürurla qeyd etmək istəyirəm ki, ordumuzun musiqi mədəniyyətini yaşadan Əlahiddə Nümunəvi Hərbi Orkestrinin keçdiyi uzun illik yorulmaz fəaliyyətini bir yazıya sığdırmaq çox çətindir. Hərbi Orkestrin kollektivi bir çox ölkələrdə Pakistan, Türkiyə, Rusiya, Qazaxıstan və Özbəkistanda dövlət tədbirlərində iştirak edərək nümunəvi çıxışları ilə alqışlarla qarşılanıb.

Götürdüyümüz zəngin faktlar ondan xəbər verir ki, bu gün Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji ruhunun yüksəldilməsində mühüm rol oynayan xalqımızın hərbi musiqi ənənəsi, mədəniyyəti şanlı hərb tariximizdə böyük sevgi hissi ilə qorunub yaşadılır. Hazırda Avropa hərbi musiqi mədəniyyəti də məhz bu təcrübə bazasında formalaşıb. Mehtərin təsir gücü avropalılar tərəfindən yüksək qiymətləndirilib, nümunə kimi qəbul edilərək müxtəlif Avropa ölkələrində hərbi musiqi bölmələri yaradılıb.

Cümhuriyyət Ordusunun tarixi varislik prinsiplərinə əsaslanan müasir ordumuzun Hərbi Orkestri də ənənələri yaşadır və uğurla davam etdirir. 1991-ci ilin 18 oktyabrında Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra ərazi bütövlüyümüzün, təhlükəsizliyimizin təminatçısı olan milli ordumuzun yaradılmasına başlanıldı. 1992-ci ilin iyulunda Azərbaycan Ordusunda Hərbi Orkestrin yaradıcı kollektivi formalaşaraq fəaliyyətə başladı. Orkestrə rəhbərlik o zaman polkovnik-leytenant Yusif Axunzadəyə tapşırıldı. Məhz o gündən Azərbaycanda hərbi musiqi mədəniyyəti keyfiyyət və mahiyyət etibarilə yeni, professional dönəmə qədəm qoydu. Xalq artisti, professor, general-mayor Yusif Axundzadənin rəhbərliyi ilə Hərbi Orkestr hərbi musiqimizin keşiyində möhkəm dayandı. Hərbi musiqi mədəniyyətimiz on illər ərzində dövlət qayğısı ilə əhatə olunaraq, yüksək inkişaf yolu keçdi. Bu sahədə kadrların hazırlanmasında, yeni repertuarın formalaşmasında, zənginləşməsində əhəmiyyətli işlər həyata keçirildi. Bu gün hərbi musiqimizin qürurverici sədaları dövlət səviyyəli rəsmi tədbirlərdən, ölkəmizdə keçirilən möhtəşəm hərbi paradlardan, idman yarışlarından, mədəni-kütləvi mərasimlərdən eşidilir. Əlamətdar tarixlərdə hərbi musiqilərimizdən, marşlarımızdan ibarət geniş konsert proqramları təşkil olunur. Hərbi musiqilərimiz, marşlarımız ordumuzu yenilməz edir, əzəmətini daha da artırır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin 8 Noyabrında Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun düşmən üzərində qazandığı Böyük Zəfərinə həsr olunmuş “Qələbə marşı” hərbi musiqi tariximizin şah əsəridir. Hərbi Orkestr Xidmətinin rəisi polkovnik R.Axundzadənin müəllifliyi ilə araya-ərsəyə gələn “Qələbə marşı”nın özəyini təşkil edən Şur muğamının döyüş intonasiyaları rəşadətli ordumuzu, Yallı rəqsi isə vəhdət rəmzi olaraq Müzəffər Ali Baş Komandanın və xalqımızın sarsılmaz birliyini təcəssüm etdirir. “Qələbə marşı”nın sədaları altında qalib ordumuz daima Zəfər yürüşü edəcəkdir.

**Lalə HÜSEYNOVA**
**“Azərbaycan Ordusu”**

# Hərbi qulluqçularda psixoloji özünütəlqin: nəticəyə köklənmək və döyüşçü ruhunun formalaşdırılması

*Hərbi xidmət yalnız fiziki hazırlıq, silahdan istifadə bacarığı və taktiki biliklərin praktiki olaraq tətbiqindən ibarət deyil. Döyüşçünün uğurlu nəticəsini müəyyən edən ən vacib amil onun psixoloji hazırlığı, özünəinamı, iradəsi və qarşısına qoyduğu məqsədə olan münasibətidir. Ən çətin şəraitdə belə tapşırığı yerinə yetirmək üçün insan, ilk növbədə, öz düşüncələrini idarə etməyi bacarmalıdır.*

Bu baxımdan psixoloji özünütəlqin hərbi qulluqçunun mənəvi-psixoloji hazırlığında mühüm vasitələrdən biri kimi nəzərə alınmalıdır.

### Özünütəlqin nədir?

Özünütəlqin insanın müəyyən məqsəd və inancları şüuraltında özünə təkrar etməsi və həmin fikirləri davranışa istiqamət verən daxili nəzarətçiyə çevirməsidir.

Məsələn, hərbi qulluqçunun qarşısında çətin tapşırıq olduqda “Bu, çox çətindir, görəsən bacaracağam?” düşüncəsinə köklənərsə, diqqəti problemin özünə və mümkün uğursuzluğa yönəlir. Əksinə, “Mən bu tapşırığı yerinə yetirməliyəm. Əlimdən gələn bütün imkanlardan istifadə edəcəyəm. Çətinlik məni dayandırmamalıdır” kimi məqsədyönlü daxili mövqe onun diqqətini hərəkətə və nəticəyə yönəldir.

Burada əsas məsələ sadəcə pozitiv sözlər düşünmək və söyləmək deyil. Özünütəlqin hərbi qulluqçunun düşüncə tərzini, münasibətini və davranışını formalaşdıran sistemli psixoloji yanaşmaya çevrilməlidir.

### “Bəhanə” düşüncəsindən “həll” düşüncəsinə

Tapşırığın icrası zamanı hərbi qulluqçunun qarşısına müxtəlif çətinliklər çıxa bilər. Çətinliklər, məhrumiyyətlər, yorğunluq, stres, uğursuzluq qorxusu, şəraitin əlverişsiz olması və digər amillər hərbi qulluqçunu bəhanə axtarmağa sövq etməməlidir.

Hərbi qulluqçu üçün ən vacib psixoloji bacarıqlardan biri isə problemlə bəhanə arasındakı fərqi görməkdir.

“Bunu niyə edə bilmərəm?” sualı əvəzinə hərbi qulluqçu özü-özünə:

“Bunu necə edə bilərəm?”

“Hazırda nə edə bilərəm?”

“Məqsədə çatmaq üçün növbəti addımım nədir?”

“Mövcud imkanlarımdan necə daha səmərəli istifadə edə bilərəm?” kimi sualları verərsə, düşüncələrini passiv vəziyyətdən səmərəli fəaliyyətə keçirə bilər.

Bu yanaşmanın məqsədi hərbi qulluqçunu reallığı inkar etməyə çağırmaq deyil. Əksinə, çətinliyi qəbul edib onun qarşısında fəal və icraya yönəlmiş mövqe tutmaqdır.

### Nəticəyə köklənmək

Hərbi qulluqçuya verilən tapşırıq onun üçün sadəcə yerinə yetirilməli bir iş deyil. Tapşırığın arxasında məsuliyyət, bölmənin-komandanın fəaliyyəti və ümumi məqsəd dayanır. Buna görə də hərbi qulluqçunun düşüncəsində “Mən nə üçün bunu etməliyəm?” sualının aydın cavabı olmalıdır.

Nəticəyə köklənmiş hərbi qulluqçu:

“Tapşırıq→məqsəd→fəaliyyət→nəticə” ardıcıllığı ilə düşünür.

Bu zaman hərbi qulluqçunun düşüncəsində diqqət “Nə qədər çətindir?” sualından “Nəticəyə çatmaq üçün nə etməliyəm?” sualına keçir.

Özünütəlqində istifadə edilən qısa və konkret ifadələr bu düşüncə modelini möhkəmləndirə bilər:

“Tapşırığı başa düşürəm və məqsədimi bilirəm”.

“Çətinlik diqqətimi yayındırmır”.

“Bəhanə yox, həll yolu axtarıram”.

“Olanlardan faydalanmağı bacarsam, olmayanlara ehtiyac olmayacaq”.

“Diqqətimi tapşırığa yönəldirəm”.



“Sakitəm, diqqətliyəm və ardıcıl hərəkət edirəm”.

“Başladığım işi sona çatdırmağa köklənirəm”.

Belə ifadələr mexaniki şəkildə təkrarlanmaq üçün deyil, real davranışla əlaqələndirilmək üçün istifadə olunmalıdır.

### Tapşırığa həvəs və diqqətlə yanaşmaq

Hərbi qulluqçunun tapşırığa münasibəti onun icrasının keyfiyyətinə birbaşa təsir göstərir. Eyni tapşırığı bir hərbi qulluqçu məcburiyyət kimi, digəri isə öz peşəkarlığını göstərmək imkanı kimi qəbul edə bilər.

Özünütəlqin burada daxili motivasiyanın gücləndirilməsinə xidmət edir.

Hərbi qulluqçu özünə belə suallar verə bilər:

“Bu tapşırığı daha yaxşı yerinə yetirmək üçün nə edə bilərəm?”

“Mənim bu tapşırıqda əsas məsuliyyətim nədir?”

“İndi diqqətimi ən çox nəyə yönəltməliyəm?”

Belə suallar hərbi qulluqçunun diqqətini çətinliklərdən, məhrumiyyətlərdən, yorğunluqdan, stresdən, uğursuzluq qorxusundan, narahatlıqdan və digər amillərdən uzaqlaşdıraraq konkret fəaliyyətə yönəldir.

### Döyüşçü ruhu

Döyüşçü ruhu yalnız cəsarət və emosional coşqu demək deyil. Əsl döyüşçü ruhu çətinlik qarşısında özünü idarə etmək, məsuliyyətdən yayınmamaq, intizamlı olmaq, döyüş yoldaşına güvənmək, verilmiş tapşırığın əhəmiyyətini dərk etmək və məqsədə çatmaq üçün ardıcıl fəaliyyət göstərmək bacarığıdır.

Döyüşçü ruhunun mühüm xüsusiyyətlərindən biri də budur:

“Şərait çətinləşdikcə mənim intizamım və diqqətim zəifləməməlidir”.

Bu düşüncə hərbi qulluqçunun özünü emosional olaraq idarə etməsinə kömək edir. Çünki döyüş və ya yüksək stress şəraitində insanın qorxu, narahatlıq və tərəddüd hiss etməsi təbii haldır. Psixoloji hazırlığın məqsədi bu hisslərin ümumiyyətlə yaranmamasını gözləmək deyil. Məqsəd həmin hisslərə baxmayaraq düzgün qərar və davranışı davam etdirə bilməkdir.

### Özünütəlqin necə məşq etdirilə bilər?

Özünütəlqin birdəfəlik öyrənilən bacarıq deyil. Onun effektiv olması üçün gündəlik məşq tələb olunur.

Hərbi qulluqçu gün ərzində qısa müddət ərzində özünə aşağıdakı sualları verə bilər:

“Bu gün mənim əsas məqsədim nədir?”

“Qarşıma hansı çətinlik çıxa bilər?”

“Çətinlik yarananda mənim düzgün reaksiyam nə olacaq?”

“Tapşırığı yerinə yetirərkən diqqətimi nəyə yönəltməliyəm?”

“Günün sonunda hansı nəticəni əldə etmək istəyirəm?”

Eyni zamanda qısa, konkret və reallığa uyğun daxili ifadələr seçilə bilər:

“Mən hazıram”.

“Diqqətimi qoruyuram”.

“Çətinlik qarşısında geri çəkilmirəm”.

“Problemi və onun aradan qaldırılması yolunu görürəm və həll yoluna köklənirəm”.

“Məsuliyyətimi dərk edirəm”.

“Komandanın bir hissəsiyəm”.

“Tapşırığın uğurlu icrası mənim də məsuliyyətimdir”.

“Sakitlik, intizam və diqqət mənim gücümdür”.

Bu ifadələrin ən böyük təsiri onların real məşq və davranışla birləşdirilməsi zamanı yaranır. Hərbi qulluqçu “Mən diqqətliyəm” deməklə kifayətlənməməli, məşq zamanı həqiqətən diqqətini idarə etməyi öyrənməlidir.

### Özünütəlqin və komanda ruhu

Hərbi qulluqçu təkcə fərdi məqsədə deyil, həm də kollektiv məqsədə köklənməlidir. Çünki hərbi fəaliyyətin mühüm xüsusiyyətlərindən biri bölmə-komanda daxilində qarşılıqlı etimad və məsuliyyətdir.

“Yalnız özüm üçün deyil, bölməm-komandam üçün də məsuliyyət daşıyıram” düşüncəsi hərbi qulluqçuda məsuliyyət hissini gücləndirə bilər.

Lakin burada da sağlam yanaşma olmalıdır. Döyüşçü ruhu düşünülməmiş riskə getmək və ya təhlükəni qiymətləndirməmək demək deyil. Əksinə, intizam, hazırlıq, vəziyyəti düzgün qiymətləndirmək və verilmiş tapşırıq çərçivəsində məsuliyyətli hərəkət etmək döyüşçü ruhunun ayrılmaz hissəsidir.

**Nəticə:**

Psixoloji özünütəlqin hərbi qulluqçunun düşüncəsini məqsədyönlü şəkildə idarə etməsinə, özünəinamını və məsuliyyət hissini möhkəmləndirməsinə, çətinlik qarşısında daha məqsədyönlü mövqe tutmasına kömək edən vasitələrdən biridir.

Əsas məqsəd hərbi qulluqçuya “Hər şey asandır” fikrini aşılamaq deyil. Əksinə, onda “Çətin ola bilər, amma mən çətinlik qarşısında necə davranacağımı bilirəm” düşüncəsini formalaşdırmaqdır.

Əsl döyüşçü ruhu da məhz burada başlayır.

Döyüşçü çətinliyi görür, lakin bəhanəyə çevirmir.

Qorxu və gərginliyi hiss edə bilər, lakin onların idarə etdiyi insana çevrilmir.

Tapşırığın məsuliyyətini dərk edir, diqqətini məqsədə yönəldir və hazırlığı çərçivəsində ardıcıl fəaliyyət göstərir.

Çünki güclü döyüşçü, ilk növbədə, öz düşüncələrini idarə etməyi bacaran döyüşçüdür.

**Polkovnik-leytenant
Fərhad MƏCİDLİ**

# Neftdən gücə, zəhmətdən parlaq gələcəyə

Azərbaycanın tarixində elə peşələr var ki, onların zəhməti yalnız bir sahənin inkişafı ilə məhdudlaşmır, bütövlükdə ölkənin taleyinə təsir göstərir. Neftçilik də belə şərəfli peşələrdəndir. Xəzərin qoynunda, günəşin və küləyin sərtliyi ilə üz-üzə çalışan, gecə-gündüz məsuliyyətli əməyini davam etdirən neftçilər Azərbaycanın iqtisadi inkişaf salnaməsində özünəməxsus iz qoyublar.

20 sentyabr ölkəmizdə bu zəhmət sahiblərinin peşə bayramı - Neftçilər Günü kimi qeyd olunur. Bu tarix, eyni zamanda, müstəqil Azərbaycanın yeni neft strategiyasının başlanğıcını simvolizə edir. 1994-cü il sentyabrın 20-də Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin imzalanması ölkənin gələcək inkişafında mühüm mərhələyə çevrildi. Sonralar “Əsrin müqaviləsi” adlandırılan bu saziş Azərbaycanın dünya enerji xəritəsində mövqeyini möhkəmləndirdi.

Həmin illərdə qarşıya qoyulan məqsəd təkcə yerin dərinliklərindəki sərvətləri hasil etmək deyildi. Qarşıda daha böyük vəzifələr dayanırdı: müstəqil dövlətin iqtisadi əsaslarını möhkəmləndirmək, xarici sərmayədarları ölkəyə cəlb etmək, enerji resurslarının dünya bazarlarına etibarlı şəkildə çatdırılmasını təmin etmək və əldə olunan imkanları Azərbaycanın inkişafına yönəltmək.

Bu baxımdan 20 sentyabrı yalnız neft sənayesinin təqvimindəki əlamətdar tarix kimi qiymətləndirmək doğru olmaz. Bu tarix həm də Azərbaycanın öz gələcəyinə inamla addım atdığı günlərdən biridir. “Əsrin müqaviləsi”ndən sonra Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, daha sonra “Cənub Qaz Dəhlizi” kimi iri layihələr Azərbaycanın enerji siyasətinin ardıcıl şəkildə həyata keçirilməsinin nəticəsinə çevrildi.

Bu gün həmin yolun nəticələrinə nəzər salarkən bir həqiqət aydın görünür: enerji resursları yalnız iqtisadi gəlir mənbəyi deyil, həm də milli güc, iqtisadi qüdrət amilidir. Enerji təhlükəsizliyinin təmin olunması dövlətin iqtisadi sabitliyi, sənayenin inkişafı, sosial layihələrin həyata keçirilməsi və ölkənin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycanın bu gün qarşıya qoyduğu hədəflər isə neft və qaz sənayesinin ənənələrini qoruyaraq, yeni enerji imkanlarının yaradılmasına hesablanıb. Bərpaolunan enerji mənbələrinin inkişafı, günəş və külək elektrik stansiyalarının yaradılması, Qarabağ iqtisadi zonasının və Şərqi Zəngəzurun “yaşıl enerji” potensialından istifadə olunması ölkənin enerji siyasətinin yeni mərhələsini təşkil edir. İşğaldan azad edilmiş ərazilərdə su elektrik stansiyalarının və digər enerji obyektlərinin yaradılması həmin torpaqlarda həyatın bərpası ilə yanaşı, Azərbaycanın enerji sisteminin gücləndirilməsinə də xidmət edir.

Azərbaycan Ordusu üçün də güclü iqtisadiyyat və etibarlı enerji təminatı mühüm amillərdəndir. Dövlətin iqtisadi imkanlarının artması müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, müasir hərbi infrastrukturun yaradılması, ordunun ən yeni texnologiyalarla təmin olunması və hərbi qulluqçular üçün layiqli xidmət şəraitinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsinə imkan verir. Bu mənada neftçinin əməyinin nəticəsi bəzən hasil olunan neftin həcmində deyil, onun yaratdığı imkanların ölkənin ümumi inkişafına verdiyi töhfədə özünü göstərir.

Bu gün Azərbaycan artıq yalnız neft hasil edən ölkə kimi deyil, enerji layihələri ilə regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən etibarlı tərəfdaş kimi tanınır. Eyni zamanda, ölkəmiz yeni enerji reallıqlarına uyğun olaraq yaşıl enerji sahəsində də mövqelərini gücləndirir. Bu dəyişiklik bir daha göstərir ki, illər əvvəl qoyulan möhkəm iqtisadi təməl gələcəyin yeni layihələri üçün də imkan yaradır.

20 sentyabr həm keçmişə nəzər salmaq, həm də gələcəyə baxmaq üçün bir fürsətdir. Bu gün neftçilərin fədakar əməyinə verilən qiymət, əslində, Azərbaycanın inkişafında zəhməti olan bütün insanlara ehtiramın ifadəsidir. Xəzərin dalğaları üzərində qurulan neft platformalarından başlayaraq dünyanın müxtəlif istiqamətlərinə uzanan enerji xətlərinə qədər bu tarix böyük bir yolun göstəricisidir.

Həmin yolun əsas qəhrəmanlarından biri isə öz peşəsinə sədaqətlə çalışan Azərbaycan neftçisidir. Onun zəhməti ilə formalaşan ənənə bu gün yeni texnologiyalar, yeni enerji mənbələri və yeni layihələrlə davam etdirilir. Qarşıda duran əsas məqsəd isə əldə olunan nailiyyətləri qorumaq, enerji imkanlarını daha da genişləndirmək və sərvəti gələcək nəsillərin rifahına xidmət edən gücə çevirməkdir.

Neftçilər Günü münasibətilə bu şərəfli peşənin bütün nümayəndələrinə möhkəm cansağlığı, təhlükəsiz əmək və yeni uğurlar arzulayırıq. Onların əməyi Azərbaycanın iqtisadi qüdrət salnaməsinin ayrılmaz hissəsidir.

**Hüsniyyə NƏSİROVA
“Azərbaycan Ordusu”**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## *(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)*

***Suallar:***

***1. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri.***

***2. Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi.***

***3. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir.***

**Mövzu: Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin nümunəvi aparılması ordunun yüksək döyüş hazırlığının rəhnidir.**

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və müvəffəqiyyətlə icra etmələrini, mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlənirlər:

- daxili xidmət - hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;
- qarovul xidməti - Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;
- döyüş mühafizəsi və döyüş növbətçiliyi - hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir.

Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin, hər bir hərbi qulluqçunun əsas vəzifələrindən biri də təhkim olunmuş döyüş və digər texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu hər hansı bir ekstremal şəraitdə vəzifə borcunu yerinə yetirməyə özünü hazırlamalıdır.

Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi:

- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;
- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində öz vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hissləri tərbiyə etmək;
- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, müdafiə nazirinin əmrlərini, hərbi nizamnamələri, Azərbaycan Respublikasının qanunlarını dərindən öyrənməyə yönəltmək;
- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizəsi və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;
- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;
- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;
- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mədəni tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərməkdir.

### Bölmənin şəxsi heyətinin qoşun xidmətini aparmaq üçün hərtərəfli hazırlığa səfərbərliyi

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə davranmaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə döyüş və humanitar hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə, hissələrdə və gəmilərdə mühazirələr oxunur, konfranslar keçirilir, söhbətlər aparılır. Mövzuların təxmini adları: “Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti”, “Hərbi nizamnamələr hərbçi həyatının hüquqi və mənəvi normalarının toplusudur” və s.

Komandirlər və şəxsi heyətlə iş üzrə zabitlər gənc əsgər və matroslara nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Hərbi qulluqçularda öz vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin böyük rolu var. Ona görə də ictimai-siyasi hazırlıq dərslərində qrup rəhbərləri döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamaqda hərbi qulluqçulara köməklik edir. Məhz bu dərslərin sayəsində şəxsi heyətin döyüş ruhu formalaşır, dünyagörüşü artır, mənəvi maariflənməsi həyata keçirilir.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə, divar qəzetlərində və döyüş vərəqələrində işıqlandırılır. Hərbi hissələrdə hər ayın axırında qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri ilə elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, eləcə də fərqlənənlərə həvəsləndirmə tətbiq edilir.

### Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən yataqxanada, döyüş maşınları parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsinə onların cavabdehliyi xüsusi qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə dinləyicilərə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmən kəşfiyyatçıları ordumuzun döyüş sayıqlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atır.

Hərbi Dəniz Qüvvələrinin gəmilərində növbətçiliyin xüsusi növü - “vaxta” xidməti təşkil olunur. Gəminin və onun mexanizmlərinin idarə olunması şəraitinə nəzarət etmək, düşmənin qəfil hücumu zamanı silah tətbiqini və gəmidə nizam-intizamın gözlənilməsini təmin etmək üçün növbətçi daim sayıq olmalıdır. Qarovul rəisi hərbi hissənin (birləşmənin) anbar, park və maşın (təyyarə, qurğu) dayanacaqlarının və digər mühüm obyektlərin mühafizə postlarına xidmətə təyin olunan şəxslərlə xüsusi iş aparır və onların daha sayıq olmasına daim nəzarət edir.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur. Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini yerinə yetirmələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borclarını, müxtəlif şəraitlərdə, məsələn, “həyəcan”, “toplanış” siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları apararkən, məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul (vaxta) xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlancların, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur. Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, Hərbi Andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.

Bu gün Azərbaycan əsgəri dövlətin qayğısını hər zaman üzərində hiss edərək, xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır və istənilən silahlı təxribata layiqli cavab verməyə hər an hazırdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 15 oktyabr 2023-cü ildə Xankəndi şəhərində xalqa müraciətində demişdir: “... Bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror tədbirləri bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu...”.

Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir. Azərbaycan əsgəri Vətənin maraqlarını şərəflə qoruyur.

Bir vaxtlar prioritet vəzifəsi ərazi bütövlüyümüzü bərpa etmək olan ordumuz, bundan sonra da həmin bütöv və qüdrətli Azərbaycan Respublikasının qorunmasında öz missiyasını layiqincə yerinə yetirəcək. Daim öz xalqının iftixar mənbəyi kimi tarixin şanlı səhifələrində özünə yer tapması üçün hər bir hərbi qulluqçudan ona həvalə edilmiş vəzifələrin məsuliyyətlini dərindən dərk edilməsini tələb edilir. Yalnız möhkəm hərbi intizama malik olmaqla komandirlərin əmr və göstərişlərini dəqiq və sözsüz yerinə yetirməklə dərslərdə, təlimlərdə və gələcək döyüşlərdə yüksək nəticələr əldə etmək olar.

**Qeyd:** ***İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Daxili Xidmət Nizamnaməsinin, Qarnizon və Qarovul Xidməti Nizamnaməsinin, Qoşun Xidməti haqqında əmr və təlimatların tələblərini diqqətlə öyrənməli və məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə bağlamalıdır.***

**İdeoloji Təminat İdarəsi**

*Hərbi hüquq*

## Hərbi qulluqçuların hüquqları və vəzifələri

**II BÖLMƏ**

**Maddə 16. Hərbi rütbə verilmək hüququ, mükafatlandırmaq hüququ**

**1.** Hərbi qulluqçu "Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlığı, xidmət keçməsi və vəzifəsi nəzərə alınmaqla növbəti hərbi rütbənin vaxtında verilməsi hüququna malikdir. Hərbi xidmət vəzifələrinin icrası zamanı yüksək mənəvi-döyüş keyfiyyətləri göstərmiş, vəzifə borcunu nümunəvi yerinə yetirmiş zabitlərə növbəti hərbi rütbə "Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda onların vəzifələri müqabilində nəzərdə tutulmuş hərbi rütbədən bir pillə yüksək və ya verilmiş hərbi rütbədən bir pillə yüksək hərbi rütbə vaxtından əvvəl verilə bilər.

**2.** Xidmət zamanı səy göstərdiklərinə və başqalarından fərqləndiklərinə görə hərbi qulluqçuların mükafatlandırılma hüququ vardır, vəzifə borcunun icrası zamanı mərdlik və şücaət göstərilməsinə, hərbi xidmət vəzifələrinin nümunəvi yerinə yetirilməsinə görə onlar Azərbaycan Respublikasının dövlət mükafatları ilə təltifə təqdim oluna bilərlər.

*Hərbi terminlər*

## Berma




Berma hərbi fortifikasiyada, xüsusilə xəndək və müdafiə səddi olan qurğularda, bu komponent arasında yaradılan üfüqi və ya az maili dar zolaqdan (pillədən) ibarət mühəndis elementidir. Onun əsas vəzifəsi müdafiə səddinin torpaq kütləsinin xəndəyə tökülməsinin qarşısını almaq, qurğunun profilini qorumaq və fortifikasiya elementlərinin dayanıqlığını artırmaqdır.

Berma xəndək və müdafiə səddi arasında mühəndis baxımından mühüm əlaqələndirici elementlərdən biri hesab olunur. Berma, xüsusilə torpaqdan hazırlanmış sahə fortifikasiyası qurğularında, xəndəyin kənarı ilə müdafiə səddinin yamacı arasında yerləşir. Bu element səddin torpağının xəndəyə sürüşməsini məhdudlaşdırmağa, onun formasını qorumağa və qurğunun dayanıqlığını təmin etməyə xidmət edir. Eyni zamanda, berma fortifikasiya qurğusunun ümumi profilinin formalaşdırılmasında və onun ayrı-ayrı elementlərinin qarşılıqlı dayanıqlığının təmin edilməsində rol oynayır. Hərbi mühəndislik terminologiyasında bermanın xəndəklə parapet arasında yerləşən dar zolaq olmaqla yanaşı, keçid funksiyası da daşıya bildiyi göstərilir. Onun əhəmiyyəti yalnız torpaq kütləsinin saxlanılması ilə məhdudlaşmır. Bermanın quruluşu xəndəyin və müdafiə səddinin bir-birinə münasibətdə düzgün formalaşdırılmasına, qurğunun istismar xüsusiyyətlərinin yaxşılaşdırılmasına və fortifikasiya profilinin sabit saxlanılmasına kömək edir. Müəyyən hallarda berma xəndək boyunca hərəkət və texniki xidmət üçün istifadə olunan dar keçid sahəsi funksiyasını da yerinə yetirə bilər. Bu xüsusiyyət xüsusilə sahə fortifikasiyasında onun praktik əhəmiyyətini artırır. Müasir hərbi mühəndislikdə torpaqdan yaradılan bermalar yalnız xəndək və müdafiə səddinin tərkib hissəsi kimi deyil, müxtəlif mühəndis qurğularında əlavə mühafizə və manevr elementi kimi də tətbiq olunur. Məsələn, torpaq bermalardan müəyyən ərazilərdə şəxsi heyətin, texnikanın və mühüm obyektlərin qorunmasını gücləndirmək, düşmənin hərəkətini məhdudlaşdırmaq və ərazinin mühəndis baxımından təşkilini yaxşılaşdırmaq məqsədilə istifadə edilə bilər. Müasir sahə fortifikasiyasında torpaqdan yaradılan qurğuların müdafiə və sağqalma qabiliyyətinin artırılmasında mühüm rol oynadığı hərbi mühəndislik mövzusunda məlumatlarda da qeyd edilir.

Bermanın quruluşu və ölçüləri bütün fortifikasiya qurğularında eyni olmur. Onlar qurğunun təyinatından, relyefdən, torpağın xüsusiyyətlərindən, xəndəyin və müdafiə səddinin ölçülərindən, həmçinin ərazinin mühəndis-istehkam şəraitindən asılı olaraq müəyyən edilir. Buna görə də bermanın ölçüləri və forması konkret qurğunun konstruksiyasına uyğun seçilir. Torpağın dayanıqlığı, suyun axını və səth sularının təsiri kimi amillər də onun düzgün formalaşdırılmasında nəzərə alınmalıdır. Bermanın düzgün təşkili xəndəyin öz funksiyasını qoruması baxımından da əhəmiyyətlidir. Müdafiə səddinin yamacından torpağın xəndəyə sürüşməsi və orada yığılması xəndəyin profilini dəyişə, onun dərinliyini azalda və nəticədə fortifikasiya qurğusunun nəzərdə tutulan xüsusiyyətlərinə təsir göstərə bilər. Berma bu prosesin qarşısını almağa kömək etməklə qurğunun formasının və dayanıqlığının saxlanılmasına xidmət edir. Beləliklə, berma fortifikasiya qurğularında dayanıqlığın və düzgün profilin təmin edilməsinə xidmət edən mühəndis elementidir. Xəndək və müdafiə səddi olan qurğularda onun əsas funksiyası torpağın xəndəyə tökülməsinin qarşısını almaq və qurğunun dayanıqlığını qorumaqdır. Müxtəlif mühəndis qurğularında isə berma əlavə keçid, mühafizə və manevr funksiyaları da daşıya bilər. Sadə konstruksiyasına baxmayaraq, berma fortifikasiyanın ayrı-ayrı elementlərinin səmərəli və dayanıqlı şəkildə təşkilində mühüm rol oynayan mühəndis həllərindən biridir.

**Hazırladı:**
**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# İdman



### Azərbaycan komandası Maltada estafet yarışının qalibi olub

Azərbaycan Xüsusi Olimpiya Komitəsinin atletləri Maltada keçirilən "Avropa açıq" üzgüçülük yarışında uğurlu nəticə göstəriblər.

Azərbaycan təmsilçiləri 4x50 metr məsafəyə sərbəst üsulla komanda estafetində 3 dəqiqə 14,55 saniyə nəticə ilə birinci olublar.

Atletlər fərdi yarışlarda da mükafatçılar sırasında yer alıblar. Mirqayıb Rəsulov 50 metr məsafəyə "butterfly" və sərbəst üsulla üzmədə gümüş medal qazanıb. Georgi Qəniyev 50 metr arxasıüstə üzmədə ikinci, sərbəst üsulda isə üçüncü olub. Ağasəlim Abdullayev 25 metr brass üsulunda ikinci, 50 metr məsafədə isə dördüncü yeri tutub. Məhəmməd Əli 50 metr arxasıüstə üzmədə üçüncü, sərbəst üsulda isə altıncı olub.

### Azərbaycanın aerobika gimnastları dünya çempionatında gümüş medal qazanıblar



İspaniyanın Pamplona şəhərində keçirilən aerobika gimnastikası üzrə dünya çempionatında Azərbaycan gimnastları uğurlu nəticə göstəriblər.

Ölkəmizi qarışıq cütlük proqramında təmsil edən Mədinə Mustafayeva və Vladimir Dolmatov final mərhələsində inamlı çıxış nümayiş etdirərək cəmi 0,1 xal fərqlə gümüş medalın sahibi olublar.

Avropa çempionu olan cütlüyümüz təsnifat mərhələsində 19.050 xal toplayaraq finala yüksəlib. Finaldakı çıxışlarının nəticəsinə əsasən gimnastlarımız fəxri kürsünün ikinci pilləsində qərarlaşıblar.

Dünyanın ən güclü aerobika gimnastlarını bir araya gətirən mötəbər yarışda 38 ölkədən 350-dən çox gimnast mübarizə aparıb.



### 16 yaşadək Azərbaycan basketbol millisi Türkiyədə ikinci yeri tutub

16 yaşadək oğlanlardan ibarət Azərbaycan milli basketbol komandası Türkiyənin Yalova şəhərində keçirilən "EVOQ Challenge Cup Pre Season Yalova" beynəlxalq mövsümöncəsi hazırlıq turnirində çıxışını başa vurub.

Azərbaycan Basketbol Federasiyasından (ABF) AZƏRTAC-a bildirilib ki, millimiz qrup mərhələsində keçirdiyi üç oyunun hamısında qələbə qazanaraq finala yüksəlib.

"Konya Diltaş Basketbol" komandası ilə həlledici qarşılaşmada 21:47 hesabı ilə geri düşməsinə baxmayaraq, əzmkar mübarizə ilə oyuna qayıdan basketbolçularımız fərqi minimuma endirib və sonadək nəticə uğrunda mübarizə aparıb. Hesabı bərabərləşdirmək və önə keçmək imkanları qazanan millimiz sonda 69:73 hesabı ilə məğlub olaraq turniri ikinci pillədə tamamlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

### Husilər: Səudiyyə Ərəbistanı son sutkada Yəmənə 37 hava zərbəsi endirib



Səudiyyə Ərəbistanı Hərbi Hava Qüvvələri son 24 saat ərzində Yəmənə 37 hava zərbəsi endirib.

Bu barədə "Ənsar Allah" hərəkatının sözçüsü Yəhya Səria məlumat verib.

Onun sözlərinə görə, hücumlarda Xamis Muşayt şəhəri yaxınlığında yerləşən F-15 qırıcılarından istifadə olunub. Zərbələrin Taiz və Həccah əyalətlərindəki hədəflərə endirildiyi, nəticədə mülki şəxslər arasında ölən və yaralananların olduğu iddia edilir.



### NBC: ABŞ-də F-16 qırıcısı qəzaya uğrayıb

ABŞ-nin Miçiqan ştatında F-16 qırıcı təyyarəsi qəzaya uğrayıb. Bu barədə NBC telekanalı məlumat yayıb.

Məlumata görə, pilot katapult edərək xilas olub və xəstəxanaya yerləşdirilib. Qəzanın səbəbləri hələlik məlum deyil.

### Britaniya Ordusu kəşfiyyat üçün kamuflyajlı atları sınaqdan keçirir



Britaniya Ordusu müasir döyüş şəraitində atlardan istifadə imkanlarını sınaqdan keçirir.

Bu barədə "The Daily Telegraph" məlumat yayıb.

Bildirilib ki, Hempşirdə yerləşən Lonqmur Təlim Meydanında keçirilən hərbi təlimlər zamanı Ev Süvari Alayının hərbçiləri kamuflyaj edilmiş atlarla məşqlər aparıblar.

Böyük Britaniya Müdafiə Nazirliyi təlimləri təsdiqləyərək bildirib ki, hərbçilər müttəfiq ölkələrin təcrübəsindən yararlanaraq atlı kəşfiyyat, çətin ərazilərdə hərəkət, kamuflyaj, təchizat və atlara qulluq imkanlarını araşdırırlar.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mehrəliyev Orxan Eytiram oğluna verilmiş AD № 0059859 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Məmmədov Sərxan Xaliq oğluna verilmiş MV № 122324 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | baş leytenant Fərid RƏHİMLİ | Lisenziya № 361 Sifariş № 780 Nüsxə 3653 |